Tədbirdə Təhsil Nazirliyinin, SOCAR-ın, AMEA-nın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, “Gənc mühəndislər” ictimai birliyinin nümayəndələri və şirkət rəhbərləri iştirak ediblər.

Tədbirin keçirilməsində məqsəd ictimaiyyəti “Kiçik akademiya”nın fəaliyyəti ilə tanış etmək, layihələr çərçivəsində bir sıra qurumlarla tərəfdaşlıq imkanlarını araşdırmaqdan ibarətdir.

Sərgidə liseyin nəzdində fəaliyyət göstərən “Kiçik akademiya” üzvlərinin müxtəlif kateqoriyalar üzrə hazırladıqları layihələr nümayiş olunub. Sərgi başa çatdıqdan sonra şagirdlər qonaqlar üçün hazırladıqları kiçik konsert proqramı ilə çıxış ediblər.